# Prezident Azərbaycanda gender bərabərliyinə orijinal milli konseptual baxış tezisi ortaya qoydu...

***Buludxan Xəlilov:** "Ölkə başçısı gender bərabərliyinin ölkədə tətbiq edilməsi ilə bağlı milli-mənəvi bir konsepsiya ortaya qoydu"*



*"Prezident bu mesajı ilə həm ziyalı təbəqəsinin, ali məktəblərdə dərs deyən professor-müəllim heyətinin, həm də gənclərin üzərinə böyük məsuliyyət qoyur"*

**Azərbaycan ailəsi milli mental dəyərlərə sadiq qaldıqca həm öz mövcudluğunu qoruya bilər, həm də inteqrasiya prosesini ağrısız, zədəsiz adlayar. Bu gün ölkəmizdə gender bərabərliyi haqqında çox danışılır və qadınların kişilərlə bərabər olması önə çəkilir.**

Əlbəttə, bəzi qüvvələr "qadın hüquqları"nı qabardaraq Azərbaycan cəmiyyətində qadınların dominant rol oynamalı olduğunu önə çəkirlər. Təəssüf ki, Avropa dəyərlərinə inteqrasiya tərəfdarı olan bu insanlar milli-mənəvi dəyərlərimiz olan böyüyə-kiçiyə sevgi, hörmət tendensiyasını qəbul etmək istəmirlər. Azərbaycanın ailə institutuna yönəlik olan bu səhv təbliğat cəmiyyətimizdə bir sıra aşınmalara səbəb ola bilər.

Hər zaman milli-mənəvi dəyərlərə, ailə modelimizin ənənələr üzərində inkişafına böyük önəm verən ölkə başçısı zaman-zaman bu məsələ ilə bağlı öz mövqeyini bildirir.

Noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev geniş nitq söyləyərək bu aktual məsələyə öz mövqeyini bildirdi. "...Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meylliliyi - bu sintez Azərbaycanda var. Həm cəmiyyətdə, həm iqtidarda var. Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər. İndi bəzi ölkələrdə buna fikir verilmir. Qadınlarla kişilər arasında artıq fərq qoyulmur. Amma biz ənənəvi cəmiyyətdə yaşayırıq və yaşamalıyıq. Qadınlara hörmət etməliyik, biz onları qorumalıyıq, onları müdafiə etməliyik. Onlar bizi yox, biz onları. Gender bərabərliyi var, biz də bunu qəbul edirik. Amma biz ənənəvi düşüncədən kənarda yaşaya bilmərik və gənc nəsil də bunu bilsin. Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən "ağsaqqal", "ağbirçək" sözləri çıxsın, necə ki, bəzi ölkələrdə. Onlara baxanda adam dəhşətə gəlir. Sonra da bizə deyirlər ki, gəlin bizə inteqrasiya edin. Mən bir dəfə demişəm, hələ Avropada o iqtisadi böhran baş alıb gedəndə dedim ki, biz haraya inteqrasiya etməliyik, böhrana? Haraya inteqrasiya etməliyik, "Stop İslam!" deyənlərə? Haraya inteqrasiya etməliyik, qadınla kişi arasında fərq görməyənə? Mən artıq daha dərinə getmək istəmirəm. Biz qətiyyən oraya inteqrasiya etməyəcəyik. Ona görə Azərbaycanda yaşlı nəsil, gənc nəsil bir yerdə olmalıdır, necə ki, ali məktəblərdə. Baxın, indi Bakı Dövlət Universitetində minlərlə gənc var, müəllim var. Müəllimlər biliklərini bölüşürlər, gənclər öyrənirlər, sabah onların yerini tutacaqlar. Belə inkişaf etməliyik. Əlbəttə, kadr islahatları bundan sonra da aparılmalıdır. Ancaq bu, kampaniyaya çevrilməməlidir" - deyə bildirən ölkə başçısı bununla da gəncliyə, Azərbaycanın sabahı olan insanlara öz tövsiyələrini verdi və inteqrasiyanın ağrılı fəsadlarını konkret nümunələrlə açıqladı.

Prezident gender bərabərliyinin təmin olunması ilə bərabər milli dəyərlərimizin, ailə ənənəmizin qorunması konsepsiyasını ortaya qoydu.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri Buludxan Xəlilov "Bakı-Xəbər"ə bildirdi ki, Prezidentin gəncliyə xitabən söylədiyi fikirləri BDU-nun 100 illik yubileyində səsləndirməsi təsadüfi deyildi. Milli-mənəvi dəyərlər sisteminin, ənənələrimizin formalaşmasında mühüm rol oynayan BDU-nun gənclərin həyatına təsirinin əvəzsiz olduğunu qeyd edən B.Xəlilovun sözlərinə görə, Prezident bu fikirləri səsləndirərkən ali məktəb müəllimlərinə, ziyalılara mesajlar ötürüb ki, siz gəncliyi yetişdirərkən bu məqamlara xüsusi fikir verin, çünki gənclik Azərbaycan xalqının tarixini, ailə ənənələrini, böyüyə-kiçiyə hörməti dərindən mənimsəməlidir. "Bu çıxışında Prezident BDU müəllimlərinə, ümumilikdə, ziyalılara mesajlar ötürdü ki, onlar gəncliyimizi milli-mənəvi dəyərlərə uyğun şəkildə yetişdirsinlər. O bununla müəllimlərə səsləndi ki, siz gəncliyi düzgün istiqamətə yönəltməlisiniz. İkinci bir tərəfdən də o zalda əyləşənlərin böyük bir hissəsi gənclər idi, Prezident bu fikirləri söyləməklə gənclərin özünü ayıldırdı ki, onlar tariximizi, ailə dəyərlərimizi, milli mentalitetimizi hər zaman qorusunlar və dəyərlərimizi Avropanın çürük, mənasız dəyərlərinə dəyişməsinlər. Prezidentin çıxışındakı digər məqam isə bu idi ki, o, bu fikirlərlə orta və yaşlı nəsillə gənclər arasında əlaqələrə diqqət çəkdi. O, yaşlı nəslə müraciət edərək demək istəyirdi ki, yaşlı nəsil gəncliyi düzgün istiqamətləndirməli, gənclik isə yaşlı nəslə hörmət, ehtiramlıa yanaşmalıdır. Bunların hamısı da ali təhsil müəssisələrinin auditoriyalarında formalaşır. Ona görə də Prezident bu mesajı ilə həm ziyalı təbəqəsinin, ali məktəblərdə dərs deyən professor-müəllim heyətinin, həm də gəncliyin üzərinə böyük məsuliyyət qoyur"

B.Xəlilovun sözlərinə görə, bu gün Azərbaycanın ailə dəyərlərini dağıtmaq istəyən, onu Avropaya "inteqarsiya" adı ilə məhv etmək yolunu tutanlar var, amma onların bu təbliğatının qarşısını Azərbaycan dövlətinin həyata keçirdiyi mənəvi-ideoloji iş kəsir: "Azərbaycan dünyaya inteqrasiya edir, bunun bir məqamı da qadın-kişi, gender bərabərliyindən ibarətdir. Amma gender bərabərliyi məsələsində biz tamamilə Avropaya bənzəyə bilmərik. Avropadakı qadın-kişi bərabərliyində bəzən qadın hüquqları o mənada tapdalanır ki, qadına hörmət Şərq dəyərləri səviyyəsində ola bilmir. Amma Azərbaycan Şərqin bir parçasıdır. Biz Şərqdə ilk demokratik Cümhuriyyət quran xalq olaraq nə qədər qadın-kişi bərabərliyini əsas götürsək də, qadına cəmiyyətdə, ailədə xüsusi hörmət olunur. Qadın həm ailədə, həm cəmiyyətdə xüsusi hörmətə layiq olmalıdır, ona hörməti göstərməsək, onda ağsaqqala, ağbirçəyə, böyüyə, qadına hörmət məsələləri bizim leksikonumuzdan çıxa bilər. Biz onda ənənəmizdən uzaqlaşa bilərik. Nə qədər dünyaya inteqrasiya etsək də, dünya ilə ayaqlaşsaq da, müasir dünyanın bir parçası olsaq da, bizim ənənəvi dəyərlərimiz var. Bizim milli dəyərlərimizdən biri qadına, ağsaqqala, ağbirçəyə, böyüyə hörmətdir ki, buna gənclik əməl etməli, bu institutun yaşadılmasına çalışmalıdır".

B.Xəlilov hesab edir ki, Azərbaycan Prezidentinin bu fikirləri Azərbaycan cəmiyyəti, xüsusən də gənclik üçün bir mesajdır. Gəncliyin öz milli-mənəvi dəyərlərimizə sahib olmasının vacibliyini deyən B.Xəlilovun sözlərinə görə, ailə dəyərlərinin qorunması, böyüyə hörmət göstərilməsi gəncliyin boynuna düşən işlərdəndir: "Ölkə başçısı gender bərabərliyinin ölkədə tətbiq edilməsi ilə bağlı bir milli-mənəvi konsepsiya ortaya qoydu. Azərbaycanda gender bərabərliyi qorunur, amma ondan əvvəl bizim qadına milli baxışımız gəlir. Əlbəttə, qadını qorumaq, onu müdafiə etmək kişilərin borcudur. Gərək qadın da ona göstərilən hörmətdən sui-istifadə etməsin. Qadın cəmiyyətimizin dayağıdır, anadır".

***İradə SARIYEVA***